**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KƏND TƏSƏRRÜFATI İSTEHSALÇILARININ MALİYYƏYƏ ÇIXIŞ PROBLEMLƏRİ

İxtisas: 5312.01 "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Ülkər Şahin qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Sadıq Vəli oğlu Salahov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Anar Fazil oğlu Abbasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Azər Maarif oğlu Pənahov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Qalib Bəhram oğlu Hacıyev**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ______________ iqtisad elmləri doktoru, professor, Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Maddi istehsalın davamlı olması, digər vacib şərtlərlə yanaşı zəruri resursların mövcudluğu halında mümkündür. Maddi, əmək və informasiya resursları ilə birgə maliyyə resursları məqsədyönlü fəaliyyətin təmin edilməsində həlledici amillərdir. Kənd təsərrüfatı istehsalçılarının maliyyə durumu onların fəaliyyətinin davamlılığı və səmərəliliyində, habelə rəqabət qabiliyyətinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması və ümumilikdə bu baxımdan qarşıya çıxan problemlərin həll olunması zəruriliyi, ilk növbədə sahənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından strateji əhəmiyyəti ilə bağlıdır.

Kənd təsərrüfatının özünəməxsus cəhətləri burada çalışanların maliyyəyə çıxışı prosesinə təsirsiz qalmır. Aqrar sahədə gəlirlik səviyyəsi və vəsaitlərin dövriyyə sürəti, maddi istehsalın bir çox sahələri ilə müqayisədə aşağıdır. Sahənin yüksək riskliliyi də maliyyəyə çıxışı çətinləşdirən amillərdəndir. Bu və bir sıra digər səbəblərdən kənd təsərrüfatı istehsalçıları üçün maliyyə resurslarına əlyetənlik baxımından başqa sahələrdə çalışan subyektlərə nisbətən əlverişsiz vəziyyət xarakterikdir. Sahənin strateji əhəmiyyəti onun dövlət tərəfindən himayə edilməsini obyektiv zərurətə çevirir. Milli iqtisadiyyatın inkişaf səviyyəsi, əksər ölkələrdə kənd təsərrüfatı istehsalının stimullaşdırılması tədbirlərinin xarakteri, davamlılığı və əhatə dairəsində öz əksini tapır. Kənd təsərrüfatında istehsal subyektlərinin maliyyə resurslarına əlçatanlığının yaxşılaşdırılması və onların maliyyə təminatının yüksəldilməsi həmin tədbirlərin səmərəliliyini şərtləndirən mühüm istiqamətlərdəndir. Odur ki, həmin istehsal subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması problemləri, demək olar ki, daim gündəlikdədir.

Kənd təsərrüfatı ıstehsalçılarının maliyyəyə çıxış problemlərinin aktuallığı həm də onun "Azərbaycan Respublikasında reallaşdırılan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə Strateji Yol Xəritəsi"nin icrasının praktiki təminatının gücləndirilməsinə xidmət etməsi ilə bağlıdır. Belə ki, həmin Strateji Yol Xəritəsində 3-cü strateji

hədəf məhz “Maliyyəyə çıxışın asanlaşdırılması” adlanır. Qeyd olunan strateji hədəf üç prioritet istiqaməti əhatə etmişdir. İlk prioritet olaraq kənd təsərrüfatının maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, ikinci prioritet qismində Azərbaycanda aqrar sahədə sığorta sisteminin inkişaf etdirilməsi, üçüncü prioritet kimi isə sahəyə yerli və həmçinin xarici investisiya resurslarının cəlb edilməsinin stimullaşdırılması nəzərdə tutulur.

Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış problemləri Azərbaycanda bu və ya digər aspektdə araşdırılsa da, müvafiq istiqamətdə kompleks tədqiqatlar aparılmamışdır. Deyilənlər tədqiqat mövzusunun aktual olduğunu söyləməyə əsas verir.

Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış problemləri Azərbaycan və xarici ölkə alimləri tərəfindən bu və ya digər aspektdə tədqiq olunmuşdur. Bu baxımdan Z.Ə.Səmədzadə, E.A.Quliyev, İ.H.Alıyev, B.X.Ataşov, İ.H.İbrahimov, M.C.Hüseynov, R.Z.Hüseyn, H.A.Xəlilov, R.Ə.Balayev, N.Ə.Cavadov, Ə.Ə.Ələkbərov, S.V.Salahov və bir sıra digər Azərbaycan iqtisadçı alimlərinin əsərləri qeyd edilməlidir. Xarici ölkələrdə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış problemlərinə dair C.Harvey, Д.Л.Hітман, V.H.Smith, J.W.Glauber, P.B.Hazell, D.D.Zilberman, L.A.Vado, A.V.Biryukov, E.S.Burıx, M.N.Dudin, N.P.Lyubuşin, E.T.Prokopçuk, İ.N.Rıkova, T.N.Sedaş, A.N.Semin, A.T.Stadnik, D.M.Matveev, E.A.Şkarupa, S.V.Şkodinskiy, A.A.Yuryeva və başqaları tərəfindən aparılmış tədqiqatlar xüsusi diqqətə layiqdir. Bununla belə, haqqında danışılan problemlər kompleks tədqiq edilməmiş, adları çəkilən alimlər kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması probleminin həllini öz qarşılarına bir məqsəd kimi qoymamışlar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxışının mövcud vəziyyəti, onların maliyyə təminatını şərtləndirən istehsal və xidmət müəssisələridir. Tədqiqatın predmetini kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxışının mövcud vəziyyətini şərtləndirən amillər, meyillər və qanunauyğunluqlar təşkil edır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir şəraitdə kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxışının

asanlaşdırılması yollarının elmi əsaslarının müəyyənləşdirilməsi, mövcud vəziyyətin təhlili, kredit təminatının yaxşılaşdırılması, aqrar sığorta sisteminin maliyyəyə çıxış problemlərinin həllində rolunun artırılması, investisiya cəlbediciliyinin yüksəldilməsinə dair təklif və tövsiyələrin hazırlanmasıdır. Qeyd olunan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının konseptual müddəalarının əsaslandırılması;

– maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsi;

– kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının xarici təcrübəsinin qiymətləndirilməsi, o cümlədən istehsalçıların səmərəli kreditləşdirilməsi, onların maliyyəyə çıxışının asanlaşdırılmasında sığorta amilinin rolunun müəyyən edilməsi, kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi üzrə xarici təcrübənin ölkəmizdə tətbiqi imkanlarının qiymətləndirilməsi;

– Azərbaycanın kənd təsərrüfatının maliyyə vəziyyətinin təhlili və kreditin əlyetənlik səviyyəsinin müəyyən edilməsi;

– aqrar sığortanın istehsalın maliyyə dayanıqlığı amili kimi xarakteristikası;

– kənd təsərrüfatının investisiya cəlbediciliyi səviyyəsinin müəyyənləşdirilməsi və sahəyə investisiya qoyuluşlarının təşviqi sisteminin səciyyələndirilməsi;

– kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması, onların kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi istiqamətlərinin əsaslandılması;

– aqrar sığorta sisteminin müasir tələblər səviyyəsində qurulması, sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi, habelə kənd əhalisinin maliyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi üzrə təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqatın aparılmasının nəzəri- metodoloji əsasını Milli Məclisin qəbul etdiyi müvafiq qanunlar, Azərbaycan Respublikası Prezidentinin kənd təsərrüfatı istehsalçılarının maliyyə çıxışı problemlərinin həllinə, onların maliyyə təminatının

yaxşılaşdırılmasına yönəlmiş fərman və sərəncamları, mövzu ilə bağlı aqrar iqtisadçıların tədqiqatları təşkil edir.

Tədqiqatın informasiya bazasını kənd yerlərində iqtisadi fəaliyyəti, o cümlədən kənd təsərrüfatı istehsalında maliyyə münasibətlərini tənzimləyən qanunvericilik və normativ aktlar, Azərbaycan Respublikasının İqtisadiyyat, Kənd Təsərrüfatı və Maliyyə nazirliklərinin, Dövlət Statistika Komitəsinin məlumatları, elmi konfransların materialları, iddiaçı tərəfindən aparılmış müşahidələrin məlumatları və internet resursları təşkil edir.

Tədqiqat prosesində elmi abstraksiya, monoqrafik, müqayisə, iqtisadi-statistik təhlil, modelləşdirmə, ümumiləşdirmə və digər statistik-iqtisadi üsullardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışı vəziyyətini şərtləndirən amillər və həmin vəziyyətin qiymətləndirilməsinin elmi əsaslarının müəyyən edilməsi;
- kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının konseptual müddəaları və xarici təcrübədən istifadə imkanlarının təklif edilməsi;
- kənd təsərrüfatında istehsal subyektlərinin maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsində transaksiya xərcləri göstəricisindən istifadənin məqsədəuyğunluğunun irəli sürülməsi;
- ölkədə kənd təsərrüfatının maliyyəyə çıxışının asanlaşdırılması və investisiya cəlbediciliyinin yüksəldilməsi imkanlarının müəyyən edilməsi;
- kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin yüksəldilməsi və onların kreditlə təminat səviyyəsinin artırılması üçün zəruri olan tədbirlərin görülməsi;
- aqrar sığortada innovasiyaların reallaşdırılmasında rəqəmsal mühitin üstünlüklərindən istifadə imkanlarının konkretləşdirilməsi;
- kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi üzrə təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışı vəziyyətini şərtləndirən amillərin elmi əsasları səciyyələndirilmiş, həmin vəziyyətin qiymətləndirilməsinin nəzəri əsasları araşdırılmış, həmin vəziyyətin təhlili üçün üsullar seçilmişdir;
- kənd təsərrüfatı istehsalçısının maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsində transaksiya xərclərinin kəmiyyət ifadəsindən istifadə mümkünlüyü barədə hipotez irəli sürülmüşdür;
- kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması, o cümlədən kreditlə təminatının yaxşılaşdırılması və investisiya cəlbediciliyinin yüksəldilməsi üzrə qabaqcıl təcrübədə mühityaradan amillər üzə çıxarılmışdır;
- aqrar sahibkarlıq subyektlərinin inkişaf potensialının arzu edilən səviyyədə reallaşmamasının səbəbləri və kənd təsərrüfatı istehsalçılarının maliyyə vəziyyətini, o cümlədən kreditlərə əlyetənliyini şərtləndirən amillər müəyyən edilmişdir;
- aqrar istehsalçıların sığortaya marağının az olması səbəbləri aşkar edilmiş, aqrar sığorta savadlılığının artırılması sisteminin təkmilləşdirilməsi istiqamətləri konkretləşdirilmişdir;
- ölkədə kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi imkanları aşkar edilmiş, işğalından azad edilmiş ərazilərdə həmin imkanların reallaşdırılması, o cümlədən investisiyaların təşviqi sisteminin yaxşılaşdırılması istiqamətləri müəyyən edilmişdir;
- kənd təsərrüfatında istehsal subyektlərinin kredit qaytarma qabiliyyətinin yüksəldilməsi və onların kreditlə təminat səviyyəsinin yüksəldilməsi üçün zəruri olan tədbirlər kompleksi işlənib hazırlanmışdır;
- aqrar sığortada müştərilərlə əlaqələrin idarəetmə sistemlərinin perspektivləri, onların reallaşdırılmasında rəqəmsal mühitin üstünlüklərindən istifadə imkanları müəyyən edilmişdir;
- aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi üçün təklif və tövsiyələr əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti kənd təsərrüfatında istehsal subyektlərinin maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsinə dair yanaşmanın, sahədə istehsalçıların maliyyə təminatı sisteminin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanmasıdır. Aqrar sahədə istehsalçıların kreditlə təminatının, sığorta işinin yaxşılaşdırılması və investisiya cəlbediciliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi üzrə əldə edilmiş nəticələr milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və sənayenin kənd təsərrüfatı mənşəli xammalla təminatının yaxşılaşdırılması baxımından praktiki əhəmiyytə malikdir.

Əsaslandırılmış müddəalar, təklif və tövsiyələr Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı üzrə proqramların hazırlanması və yerinə yetirilməsində, habelə kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxış problemlərinin həlli üşün müvafiq tədbirlərin hazırlanması və reallaşdırılmasında, habelə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in həyata keçırılməsi prosesində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 5 məqalədə (1-i xaricdə olmaqla) və 7 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Kənd təsərrüfatı istehsalçılarının səmərəli kreditləşdirilməsi üzrə Qərbi və Şimali Avropa təcrübəsi" (Bakı, 2021), "Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasında investisiya amilləri: xarici təcrübə" (Gəncə, 2022), "Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasında sığorta amilləri: xarici təcrübə" (Bakı, 2022), "Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin yüksəldilməsi" (Bakı, 2022) "Heydər Əliyev və aqrar sahənin inkişaf istiqamətləri" (Mingəçevir, 2023), "Kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi" (Bakı, 2023), "Концептуальные вопросы облегчения доступа сельскохозяйственных производителей к финансам" (Çin, 2023) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsinin metodiki məsələləri" (Bakı, 2020), "Kənd təsərrüfatı istehsalçılarının kreditə çıxışının asanlaşdırılmasının xarici təcrübəsi" (Bakı, 2021), "Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi" (Bakı, 2021), "Облегчение доступа к финансированию инновационного сельского хозяйства" (Москва, 2022), "Aqrar sığorta sisteminin təkmilləşdirilməsi istiqamətləri" (Bakı, 2023) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 12199 işarə, I fəsil 81419 işarə, II fəsil 51863 işarə, III fəsil 69061 işarə, nəticə 11056 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı 23898 işarə olmaqla, ümumi həcm 261058 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 225598 işarədir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **"Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının nəzəri-metodoloji problemləri**" adlı birinci fəslində, ilk növbədə sahə istehsalçıların maliyyəyə çıxışının asanlaşdırılmasının konseptual məsələləri tədqiq olunmuşdur. Maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsinin metodiki aspektləri araşdırılmış, kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının xarici təcrübəsi müqayisəli təhlil

edilərək, ondan istifadə imkanları qiymətləndirilmişdir.

Aqrar sahə maliyyə resurslarına əlyetənlik baxımından başqa sahələrə nisbətən əlverişsiz vəziyyətdədir. Belə vəziyyəti şərtləndirən səbəblərə aşağıdakılar aid edilir: kənd təsərrüfatında gəlirliyin nisbətən aşağı səviyyəsi; pul vəsaitlərinin dövriyyə sürətinin aşağı olması; fəaliyyətin nəticəsinin təbii-iqlim amillərindən güclü asılılığı; istehsal subyektlərinin kredit qaytarma qabiliyyətinin aşağı olması və s.

Maliyyə nəzarəti əmtəə-pul münasibətlərinə əsaslanan hər bir ölkədə zəruridir. Maliyyə nəzarəti istənilən mərhələdə maliyyənin idarə edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. O bütün maliyyə sisteminin etibarlı fəaliyyətini, dövlət tərəfindən həyata keçirilən maliyyə siyasətinin reallaşdırılmasını təmin etməklə dövlətin maliyyə təhlükəsizliyinin təmin edilməsinə yardım edir[1].

Ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində "Maliyyəyə çıxışın asanlaşdırılması" adlı 3-cü strateji hədəfdə göstərildiyi kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı fəaliyyəti göstərən subyektlərin maliyyəyə çıxışının asanlaşdırılması üçün ilk prioritet maliyyələşmə mexanizminin təkmilləşdirilməsi olmalıdır. İkinci prioritet aqrar sığortanın inkişafı, üçüncü prioritet isə kənd təsərrüfatına investisiyaların cəlb edilməsinin stimullaşdırılmasıdır[2].

Aqrar fəaliyyətin ahəngdarlığı və dayanıqlığını təmin etmək baxımından zəmanət sistemi kimi sığortanın rolu artmaqdadır. Bununla belə qeyd etməliyik ki, xırda və orta əmtəə istehsalçılarının çoxu hələ də etibarlı sığorta müdafiəsinə malik deyildir. Belə vəziyyəti şərtləndirən amillər qismində, ilk növbədə aşağıdakılar qeyd edilməlidir: kənd yerlərində sığortaçılara inam azdır, sığorta xidmətləri zəruri çeşiddə təklif edilmir, regionlarda sığorta şirkətlərinin maliyyə durumu zəifdir, sığortaçılar zəif və sayca azdır

---

[1] Ataşov B., Novruzov N., İbrahimov E. Maliyyə nəzəriyyəsi. Bakı, "Kooperasiya" nəşriyyatı, 2014, 648 s.

[2] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 177 s.

və s. Sığortaçılar kənd təsərrüfatı məhsulunun sığortalanmasını, digər sahələrə nisbətən daha riskli hesab edirlər.

Kənd təsərrüfatı istehsalçısının maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsi üçün reallaşdırılmalı olan əsas mərhələlərə (bloklara) aşağıdakılar aid edilə bilər (sxem 1).




**Sxem 1. Müəssisənin maliyyə vəziyyətinin təhlilinin sadələşdirilmiş sxemi**

*Mənbə: http://www.grandars.ru/college/ekonomika-firmy/finansovyy-analiz-predpriyatiya. html*

Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və iflas riskinin qiymətləndirilməsi üzrə özləri tərəfindən mövcud üsulların tətbiq edilməsi imkanları, xeyli dərəcədə məhduddur. Belə ki, risk-menecmentin reallaşdırılması üçün: limitlərinin müəyyən edilməsi, ehtiyatların formalaşdırılması, müxtəlif risklərdən sığortalanma, fəaliyyətin şaxələndirilməsi istiqamətində atılan addımlar kompleks xarakter daşımalıdır. Aqrar sahəyə vəsait qoyuluşu (və ya kredit verilməsi) barədə qərar qəbul edən investor (bank və ya bank olmayan kredit təşkilatı) müvafiq mənbələrdə təqdim edilən

əmsallar qrupundan istifadə edə bilər. Bu baxımdan aşağıdakı əmsallar qruplarına[3] diqqət yetirmək, zənnimizcə məqsədəuyğundur: maliyyə dayanıqlığı, işgüzar fəallıq, artım sürəti, səmərəlilik və ödəniş qabiliyyəti (cədvəl 1).

**Cədvəl 1**

**Kreditor və investor tərəfindən kənd təsərrüfatı istehsalına vəsait qoyuluşunun məqsədəuyğunluğunu müəyyən etmək üçün hesablanması tövsiyə edilən əmsallar**

| Əmsal qrupları | Qrupa daxil olan əmsal | Hesablanma qaydası |
|---|---|---|
| Maliyyə dayanıqlığı | Ə1 | Ümumi kredit borclarının xüsusi vəsaitlərə nisbəti |
| | Ə2 | Satışdan daxilolmaların vaxtı keçmiş debitor borcları və avanslara nisbəti |
| | Ə3 | Satışdan daxilolmaların vaxtı keçmiş kreditor borclarına nisbəti |
| İşgüzar fəallıq | Ə4 | Satışdan daxilolmaların ehtiyatlara nisbəti |
| | Ə5 | Satışdan daxilolmaların balans mənfəətinə nisbəti |
| Artım sürəti | Ə6 | Məhsulun həcminin cari qiymətlərdə artımını (azalmasını) ifadə edir. |
| Səmərəlilik | Ə7 | Balans mənfəətinin balans məbləğinə nisbəti |
| | Ə8 | Balans mənfəətinin satışdan daxilolmalara (vergilər çıxılmaqla) nisbəti |
| | Ə9 | Balans mənfəətinin xüsusi vəsaitlərə nisbəti |
| Ödəniş qabiliyyəti | Ə10 | Pul vəsaitləri, qısamüddətli vəsait qoyuluşları, debitor borcları, ehtiyatlar və məsrəflərin qısamüddətli öhdəliklərə nisbəti |

*Mənbə: Соловьев Ю.П., Типенко Н.Г. Об оценке привлекательности отраслей промышленности для банковского кредитования / Ю.П. Соловьев, Н.Г. Типенко // Банковское дело. 2000. № 4, с. 15-20 əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Ə1 cəlb edilən vəsaitlərdən asılılıq və öz kapitalı hesabına təminat dərəcəsini ifadə edir. Ə1 ≥1 halı böhran vəziyyəti sayılır. Maliyyə

[3] Соловьев Ю.П., Типенко Н.Г. Об оценке привлекательности отраслей промышленности для банковского кредитования / Ю.П. Соловьев, Н.Г. Типенко // Банковское дело. 2000. № 4, s. 15-20

dayanıqlığı qrupuna aid Ə2-nin azalması istehsalçının maliyyə durumunun pisləşməsini göstərir. Ə3 barədə də anoloji fikir söyləmək olar.

İstehsalçının işgüzar fəallığı onun maliyyəyə çıxış vəziyyətinə əhəmiyyətli surətdə təsir edir. Bu qisimdən olan əmsallar qrupunda Ə4 ehtiyatların debitor borcuna çevrilməsi sürətini (işgüzar fəallıq dərəcəsini) səciyyələndirir. Mənbəyindən asılı olmayaraq bütün resurslardan istifadə səmərəliliyini əks etdirən Ə5 əmsalı nəzərdən keçirilən dövr ərzində mənfəət gətirən tsiklin neçə dəfə baş verdiyini göstərir. Ə6 inkişaf dinamikasını əks etdirir və bu dinamika istehsal edilən (satılan) məhsulun artma (azalma) sürətində ifadə olunur. Kənd təsərrüfatı istehsalçısının iqtisadi fəaliyyətinin səmərəliliyini səciyyələndirən əmsallar qrupuna daxil olan Ə7 əmsalı məcmu kapitalın rentabeliiyini göstərir. Ə8 məhsul satışının, Ə9 xüsusi kapitalın rentabelliyini əks etdirir. İstehsalçının qısamüddətli borcları öz vəsaiti hesabına ödəməyə nə dərəcədə hazır olduğunu göstərən ödəniş qabiliyyəti əmsalı Ə10, normal fəaliyyət üçün vahiddən kiçik olmamalıdır.

Aqrar sığorta sistemində dövlətin və özəl bölmənin tərəfdaşlığı həm kənd təsərrüfatı istehsalçılarının, həm də özəl sığorta şirkətlərinin marağını təmin etməli, tariflərə çevik münasibət olmalıdır. Aqrar sığorta sistemində rəqəmsal texnologiyaların tətbiqi üçün işlər fəallaşdırılmalı, xüsusi verilənlər bazaları yaradılması zamanı sığorta işinin xarakteristikaları diqqət mərkəzində olmalıdır.

**“Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış vəziyyətinin təhlili”** adlı ikinci fəsildə ölkədə aqrar sahənin maliyyə vəziyyəti qiymətləndirilmiş, burada çalışan istehsal subyektləri üşün kreditin əlyetənlik səviyyəsi müəyyən edilmişdir. Aqrar sığorta istehsalın maliyyə dayanıqlığı amili kimi ətraflı tədqiq olunmuş, istehsal subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılmasında zəmanət sisteminin yerinə və roluna aydınlıq gətirilmişdir. Kənd təsərrüfatının investisiya cəlbediciliyi səviyyəsi qiymətləndirilmiş, sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi sistemi xarakterizə olunmuşdur.

Fərdi sahibkarlığın inkişafı prosesində mövcud potensial arzu edilən səviyyədə reallaşa bilməmişdir. Baxmayaraq ki, dövlət bu istiqamətdə

zəruri tədbirlər həyata keçirmiş, onların davamlılığı və sistemliliyini təmin etmişdir. Belə vəziyyəti şərtləndirən amillər qismində aqrar sahədə sahibkarlığa başlayanların aqrobiznes təcrübəsinin, zəruri aqrar təhsilinin, məqbul ilkin kapitalının və s. olmamasını, ilk növbədə qeyd etmək olar. Kənd təsərrüfatı müəssisələrində bitkiçilik məhsulları istehsalına xərclərin dinamikasında artım meyli üstünlük təşkil etmiş, məhsulun maya dəyərində ciddi və davamlı artım baş vermişdir. Deyək ki, 2005-2023-cü illər ərzində kənd təsərrüfatı müəssisələrində dənli bitkilərin bir sentnerinin maya dəyəri 2,4 dəfə artaraq, 2023-cü ildə 19,29 manat təşkil etmişdir.

Kənd təsərrüfatında fərdi sahibkarların bitkiçilik məhsullarının bir sentnerinin maya dəyəri 2005-2023-cü illər ərzində tərəddüdlərlə artmışdır. Ölkənin kənd təsərrüfatı müəssisələrində heyvandarlıq məhsullarının maya dəyəri 2005-2023-cü illər ərzində artmaqda davam etmiş, süd üzrə bu artım 2,9 dəfə, yumurta üzrə 2,5 dəfə olmuşdur. Təhlil dövründə fərdi sahibkar təsərrüfatlarında heyvandarlıq məhsullarının maya dəyərində ciddi artım müşahidə edilmiş, südün maya dəyəri 3,8 dəfə və yumurtanın maya dəyəri 5,7 dəfə artmışdır.

Kənd təsərrüfatı istehsalçılarının maliyyə vəziyyəti onların emal müəssisələri, loqistik sistem elementləri, istehlakçılarla (alıcılarla) iqtisadi və hüquqi münasibətlərindən asılıdır. Azərbaycanda bu baxımdan 2007-ci ildən başlayaraq inşa edilən anbarlar kənd təsərrüfat istehsalçılarının bazar konyunkturundan asılı olaraq manevr emək imkanlarını artırmışdır.

Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının maliyyə vəziyyətinə təsir edən ən mühüm amillərdən biri sahəyə dövlət dəstəyidir. Bu dəstək vergi və gömrük güzəştləri qismində və birbaşa dövlət dəstəyi şəkilndə göstərilir. Ölkədə kənd təsərrüfatına dövlət dəstəyi tədbirləri azı iki onillik ərzində fəal surətdə həyata keçirilir.

Kreditlərin əlyetənliyinə təsir edən amilləri (onların təsirlərinin kəsişmə nöqtələrinin heç də az olmadığı nəzərə alınmalıdır) aşağıdakı kimi təsnifləşdirmək olar: müəssisənin rəqabət qabiliyyəti; fəaliyyətin risklilik dərəcəsi; sahədə fəaliyyətin iqtisadi nəticələrinin qeyri-müəyyinliyi dərəcəsi; inflyasiya riskləri; bankların əməliyyat xərclərinin səviyyəsi; sahənin ixrac potensialı; kapitalın dövriyyə

sürəti; sahəyə dövlət dəstəyi; kredit aılmaq istəyən subyektin borc yükünün xarakteristikaları və s.

Ölkənin kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoru üzrə kredit qoyuluşları 2017-2023-cü illər ərzində 13,4% azalmışdır (cədvəl 2).

**Cədvəl 2.**

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən özəl müəssisələrə verilən kreditlər, milyon manatla**

| | 2017 | 2020 | 2021 | 2022 | 2023 | 2023-cü il 2017-ci ilə nisbətən%, dəfə |
|---|---|---|---|---|---|---|
| Özəl müəssisələrə kredit qoyuluşu (manatla), mln. Manatla | 407,3 | 416,9 | 431,5 | 454,9 | 352,6 | 13,4% azalma |
| Qısamüddətli kreditlər (manatla), mlyn.manatla | 25,6 | 36,6 | 34,9 | 118,8 | 59,3 | 2,3 dəfə |
| Uzunmüddətli kreditlər, mlyn.manatla | 381,7 | 380,3 | 396,6 | 336,1 | 293,3 | 23,2% azalma |
| Xüsusi çəki, faizlə | | | | | | - |
| - qısamüddətli kreditlər | 6,3 | 8,8 | 8,1 | 26,1 | 16,8 | - |
| - uzunmüddətli kreditlər | 93,7 | 91,2 | 91,9 | 73,9 | 83,2 | - |

*Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının statistik bülleteni. 09.2021. s.26; Azərbaycan Respublikası Mərkəzi Bankının statistik bülleteni. 01.2023. s. 28; Azərbaycan Respublikası Mərkəzi Bankının statistik bülleteni.09.2024. s. 28. Müəllif tərəfindən hazırlanmışdır.*

Təhlil olunan dövr ərzində sığorta müqavilələrinin sayı ciddi surətdə, başqa sözlə 69,1 % artmışdır. Özlüyündə bu artım surəti əhəmiyyətli olsa da, təhlil dövrünün əvvəlində olan vəziyyətin qeyri-qənaətbəxş olması səbəbindən sığorta müqavilələrinin sayının milli iqtisadiyyatın dinamik inkişaf surətinə adekvat olduğunu söyləmək çətindir. İcbari və könüllü sığortalanmanın müqayisəsinə gəldikdə isə, onu qeyd etməliyik ki, bu nisbətin könüllü sığortanın xeyrinə dəyişməsi ölkədə aparılan təşviq tədbirlərinin güclənməsinin nəticəsidir (qrafik 1).




**Qrafik 1. Sığorta ödənişlərinin dinamikası.**

*Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2024, s.378. Müəllif tərəfindən tərtib olunmuşdur.*

Ölkənin kənd təsərrüfatı istehsalçıları, hətta nəzərdə tutulan güzəştli şərtlərlə belə öz əmlaklarını sığortalamaqda maraqlı olmamışlar. Belə vəziyyəti şərtləndirən əsas səbəblərə aşağıdakıları aid etmək olar: həm sığortaçının, həm də sığortalının aqrar sığortaya etimadının az olması; kənd təsərrüfatı istehsalçılarının sığorta barədə məqbul səviyyədə məlumatlı olmaması; sığorta bazarında zərərlərin qiymətləndirilməsi və standartların tətbiqində birmənalı olmayan yanaşmaların mövcudluğu və s.

Azərbaycanda aqrar sığorta sisteminin inkişafını ləngidən yuxarıdakı səbəblər, kənd təsərrüfatı istehsalçısının, hətta güzəştli olduqda belə gəlirlərin heç də həmişə sığorta tariflərinə adekvat olmaması amili ilə birgə, son illərə qədər qeyri-qənaətbəxş sığorta mühiti formalaşdırmışdı. Digər tərəfdən, məhsuldarlıqda və qiymətlərdə ciddi tərəddüdlər, resurs itkilərinin artan tezliyi və bir sıra digər risklərin yüksək ehtimalı sığortaçıların aqrar sahəyə marağını azaldırdı. Sahənin investisiya potensialı və investisiya risklərinin səviyyəsi investisiya cəlbediciliyini şərtləndirməklə, investisiya fəallığı formasında təzahür edir. Əsas kapitala investisiyalardan istifadənin strukturunda 2005-2023-cü illər ərzində sənayenin payı

xeyli azalmış, 72,3%-dən 57,6%-ə enmişdir. Həmin dövrdə kənd təsərrüfatının payı isə artmışdır (cədvəl 3).

**Cədvəl 3**

**İstehsal fəaliyyəti növləri üzrə əsas kapitala investisiyalardan istifadənin strukturu (faizlə)**

| | 2005 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Sənaye | 72,3 | 49,9 | 49,8 | 58,1 | 39,4 | 57,6 |
| Kənd təsərrüfatı | 0,7 | 4,2 | 3,0 | 9,2 | 4,6 | 1,0 |
| Kənd təsərrüfatında əsas kapitala investisiyalar, milyon manat | 40,7 | 769,5 | 520,6 | 341,9 | 408,0 | 578,3 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri, Bakı, 2018, s.558-559; Bakı, 2023, s.511; Azərbaycanın kənd təsərrüfatı, Bakı, 2023, s. 57; Azərbaycanın statistik göstəriciləri, Bakı, 2024, s. 498. Müəllif tərəfindən hazırlanmışdır.*

2005-2023-cü illər ərzində əsas kapitala yönəldilmiş cəmi daxili investisiyalar 8,3 dəfə, o cümlədən, kənd təsərrüfatı və meşə təsərrüfatı üzrə 23,6 dəfə artmışdır. Bu sürət içki və tütün də daxil olmaqla qida məhsullarının istehsalında əsas kapitala yönəldilmiş daxili investisiyaların artımını da (4,3 dəfə) dəfələrlə üstələmişdir. Təhlil edilən dövrdə bütün əsas fondlar 8,3 dəfə artmışdırsa, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində əsas fondların ilin sonuna balans dəyəri 3,8 dəfə artmışdır. Başqa sözlə, kənd və meşə təsərrüfatı və balıqçılıq sahələrində əsas fondların dəyəri, təhlil dövründə bütün əsas fondların dəyər dinamikası ilə müqayisədə daim geri qalmışdır (diaqram 1).

Ölkədə kənd təsərrüfatının investisiya cəlbediciliyi səviyyəsi, hələ ki, arzu olunan səviyyədə deyildir. Belə vəziyyət, ümumilikdə milli iqtisadiyyatın xarici investorların maraq dairəsinə aid olduğu şəraitdə aqrar sahəyə qarşı məxsusi yanaşma tələb edir. Haqqında danışılan özünəməxsus innovasiyalı yanaşma, habelə Ermənistanın işğalından azad edilmiş ərazilədə kənd təsərrüfatının dirçəldilməsi zərurəti ilə əlaqədardır. Həmin ərazilərdə aqrar istehsalın, aqrar turizmin və özünüməşğulluğun birgə inkişafı ərazinin investisiya cəlbediciliyinin yüksəldilməsi üçün əlavə imkanlar aça bilər. Sahəyə investisiya

qoyuluşlarının təşviq edilməsi sistemində dövlət-özəl bölmə əməkdaşlığından yararlanmaq isə, zənnimizcə tamamilə məqsədəuyğundur.




**Diaqram 1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində əsas fondların və bütün əsas fondların dinamikasının müqayisəsi.**

*Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2020, s. 387; Bakı, 2023, s. 19; Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2021, s.57; Bakı, 2024, s.58*

Dissertasiya işinin **"Kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılmasının istiqamətləri"** adlı üçüncü fəslində sahədə istehsalçıların kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi imkanları aşkar edilmiş, həmin imkanların reallaşdırılması yolları göstərilmişdir. Aqrar sığorta sisteminin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmış, kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi üzrə təklif və tövsiyələr irəli sürülmüşdür.

Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin qiymətləndirilməsinin hər iki yanaşması üzrə, potensial borcalanın daşınmaz əmlakı göstəricisi istisna olmaqla, hazırda ilkin verilənlər yox dərəcəsindədir. Belə ki, kredit qaytarma qabiliyyətinin qiymətləndirilməsi məqsədilə, istehsal subyektlərinin kredit tarixi, o

cümlədən indiyə qədər aldığı kreditlər sırasında ən böyük məbləğ, investisiyalar, daşınmaz əmlak barədə məlumatlar, maliyyə hesabatları istifadə edilir. Aqrar sahənin güzəştli kreditləşdirilməsi halında isə fəaliyyətin sosial-iqtisadi əhəmiyyəti, sahənin inkişaf prioritetlərinə uyğunluğu kimi parametrlər nəzərə alınır. Görmək çətin deyildir ki, sadalanan parametrlərin kəmiyyətcə qiymətləndirilməsi üçün zəruri verilənlər bazası kifayət deyildir.

Kreditləşdirmə zamanı iri istehsal subyektlərinə üstünlük verilməsi halları, ilkin araşdırmalardan göründüyü kimi, son illər bir qədər azalsa da, hələ də ciddi və arzuolunmaz fakt olaraq qalır. Bu hallar, məlum olduğu kimi, dayanıqlı inkişaf və milli ərzaq təhlükəsizliyi prinsiplərinə də ziddir. Odur ki, kiçik və orta ölçülü kənd təsərrüfatı istehsal subyektlərinin kredit bazarında fəallığı təşviq edilməli, bu halda, ixrac yönümlü və innovasiyalı aqrar fəaliyyət himayə edilməlidir.

Kənd təsərrüfatı istehsalçılarının kreditlə təminat səviyyəsinin yüksəldilməsi üçün aşağıdakı istiqamətdə tədbirlərin həyata keçirilməsi təklif olunur: bankların aqrar sahəyə marağının artırılması üçün kredit bazarının tənzimlənməsində dövlətin rolunun artırılması, kənd təsərrüfatı kooperasiyasının təşviqi və s.; güzəştli kreditləşdirmə sisteminin, xüsusilə ərzaq və qida təhlükəsizliyinin etibarlı təminatı, habelə dayanıqlı innovasiyalı inkişaf meyarları bazasında təkmilləşdirilməsi; məqsədli kreditləşdirmə fondlarının yaradılması və dəstəklənməsi; kredit birliklərinin yaradılması və onların koordinasiya olunan fəaliyyətinin təşviqi və s.

İqtisadi islahatların dərinləşdirilməsi prosesində Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının kreditləşdirilməsinin ilkin mexanizmi formalaşdırılmışdır. Bura kreditlər üzrə faizlərin subsidiyalaşdırılması, güzəştli kreditlər, kooperativlərin kreditləşdirilməsi, kreditlərə çıxışın, əhəmiyyətli dərəcədə asanlaşdırılması üçün institusional təminat komponentləri və bir sıra digər elementlər aid edilə bilər. Eyni zamanda, onu da qeyd edək ki, kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi istiqamətində haqqında danışılan mexanizmin tam işlək vəziyyətə gətirilməsi üçün davamlı tədbirlər kompleksi həyata keçirilməlidir. Bura xüsusi qayda və normaların işlənib hazırlanmasından tutmuş, istehsalçıların

təşkilatlanmasının təşviqi mexanizminin yaradılmasına qədər geniş diapazonlu tədbirlər aid edilməlidir.

Aqrar sığorta sisteminin səmərəliliyinin yüksəldilməsi zərərlərin tənzimlənməsi mexanzimində də təkmilləşdirmələr aparılmasını tələb edir. Bu məqsədlə ilk növbədə, aqrotexnologiyalar üzrə standartlar təsdiqlənməlidir. Aqrar sığorta sisteminin təkmilləşdirilməsi istiqamətlərindən biri təsərrüfatçılıq subyektlərinin ölçüləri azaldıqca, sığorta tariflərinin yüksəlməsi meylinin qarşısını almaqdır. Aqrar sahədə qismən kiçik təsərrüfatçılıq formaları üçün dövlət tərəfindən dəstəklənən sığorta alətlərinin inkişafı istiqamətlərinə habelə, qarşılıqlı sığortalamanı və xüsusi sığorta proqramlarının hazırlanması və reallaşdırılmasını aid etmək olar. Bununla belə, qarşılıqlı sığorta cəmiyyətlərinin fəaliyyətində ortaya çıxan problemlər aqrar sığorta sahəsində həmin yanaşmanın reallaşdırılmasını xeyli dərəcədə məhdudlaşdırır. Bu baxımdan, ilk növbədə həmin cəmiyyətlərin vəsaitlərinin az olması, xüsusilə təbii fəlakətlər zamanı, vəsait çatışmazlığı üzündən ciddi problemlərin meydana çıxması qeyd edilməlidir. Digər tərəfdən aqrar istehsalda çalışan sığortalıların qarşılıqlı sığorta cəmiyyətində əhəmiyyətli məbləğ təşkil edən inzibati xərcləri istehsalçılar hesabına ödənilir.

Aqrar sığorta sisteminin təkmilləşdirilməsinin aşağıdakı imkanlarına diqqəti cəlb edir: aqrar istehsalçıların güzəştli şərtlər daxilində öz əmlaklarını sığortalamaqda marağının artırılması üçün, ilk növbədə sığortaçıya etimadın artırılması, zərərlərin qiymətləndirilməsində yanaşmaların birmənalı olmasının təmin edilməsi, normativ-hüquqi bazanın təşəkkülünün sürətləndirilməsi; aqrar sığortada dövlət və özəl bölmə tərəfdaşlığı sayəsində dövlətin sığorta şirkətlərinə təqdim etdiyi subsidiyaların həm kənd təsərrüfatı istehsalçılarının, həm də özəl sığorta şirkətlərinin sığortaya marağının artırılması. Çevik tarif siyasəti hesabına aqrar sığortada sığorta ödəmələri və sığorta tarifləri arasında dövlətin ayırdığı vəsaitin həcmi məsələsində istehsalçı və özəl sığorta şirkəti arasında səmərəli kompromis əldə edilməsi; milli ərzaq təhlükəsizliyinin təminatı prioritetlərinin reallaşdırılması baxımından aqrar sığorta işinin könüllü və icbari növlərinin xüsusi çəkilərinin dəyişməsi prosesinin optimallaşdırılması; kənd təsərrüfatına investisiyaların

stimullaşdırılması üçün sığorta amilindən daha fəal istifadə edilməsi, o cümlədən istehsaltexnoloji və təşkilati-loqistik mərhələlərin sığortalanmasında kompleksliyin təmin olunması; sığortaçıların aqrar sahədə dövlətin köməyinə bel bağlamaq imkanları haqqında, istehsalçıların isə güzəştli şərtlərlə müqavilə bağlanması imkanları barədə tam məlumatlı olması.

İnvestisya cəlbediciliyi investorun marağından tutmuş, kapitalın strukturunun formalaşmasının keyfiyyəti və səmərəliliyinə qədər olduqca geniş diapazonda amillərin məcmu təsirinin təzahürü və göstəricisi kimi mühüm rola malikdir. İnvestisiya cəlbediciliyinin yüksəldilməsi imkanlarını qiymətləndirərkən, praktiki baxımdan daha önəmli olan amillər, yəni investor, fəaliyyət istiqaməti və vəsait qoyuluşunda məqsəd nəzərə alınmalıdır. Kənd təsərrüfatının investisiya cəlbediciliyi, hazırki şəraitdə onun rəqabət qabiliyyəti ilə, rəqabət qabiliyyəti isə sahədə innovasiyalı inkişaf potensialının gerçəkləşdirilməsi imkanları ilə əlaqədardır. Həmin potensialın reallaşdırılmasında istehsal və kommersiya fəaliyyətinin texniki-texnoloji təminatının səviyyəsi həlledici rola malikdir. Odur ki, innovasiyalı inkişaf potensialının reallaşdırılması istiqamətində yaranan investisiya tələbatı, nəticə etibarı ilə kənd təsərrüfatının investisiya cəlbediciliyinə əhəmiyyətli təsir göstərə bilər.

Kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması məqsədilə sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: investisiyaları daha səmərəli istifadə edən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi məsələsinə diqqətin artırılması; innovasiyalara açıq və yüksək texnoloji fəaliyyətə hazır aqrar sahibkarlar sinfinin formalaşdırılması; bazarın dəyişən tələblərinə adekvat reaksiya verə bilən, innovasiyalara, o cümlədən rəqəmsal innovasiyalara açıq və rəqabət qabiliyyətli fəaliyyət üçün investisiya tələbatı yarada bilən kadr hazırlığı; məhsullarına bazarın müvafiq seqmentində zəruri tələb olmayan müəssisələrin fəaliyyətinin şaxələndirilməsi və yeni istiqamətlərin axtarılması; aqrar xidmətlər, istehsal və sosial infrastrukturun inkişafı sayəsində kənd ərazilərinə investorların marağının artırılması; kənd ərazilərində xidmətlər bazarının inkişafının stimullaşdırılması.

# NƏTİCƏ

Kənd təsərrüfatında çalışanların maliyyəyə çıxışının asanlaşdırılması zərurəti, sahənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyətindən irəli gəlir. Bu zərurəti şərtləndirən digər amil kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına əlyetənlik baxımından əlverişsiz vəziyyətdə olmasıdır. Belə vəziyyət sahənin özünəməxsusluğunun ümumilikdə maliyyə mexanizmində nəzərə alınmalı olan problemlərlə bağlıdır. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışı vəziyyəti: onların ölçüləri, xərcləri və riskləri necə idarə etməsi, o cümlədən zəmanət sistemi kimi sığortaya etimadı, natamam informasiya şəraitində iş qabiliyyəti, fəaliyyətin investisiya cəlbediciliyi, infrastruktur təminatı kimi amillərdən asılıdır. Kənd təsərrüfatı istehsalçısının maliyyəyə çıxışı vəziyyətini qiymətləndirmək baxımından transaksiya xərclərinin kəmiyyət ifadəsi faydalı ola bilər.

Kənd təsərrüfatı istehsalçısının maliyyə dayanıqlığı anlayışı dəqiqləşdirilmiş, onların maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsində maliyyə dayanıqlığı amilinin yeri və rolu müəyyən edilmişdir. Kənd təsərrüfatı istehsalçısının maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsi mərhələlərinə aşağıdakılar aid edilə bilər: müəssisənin əmlak durumunun və kapitalın strukturunun qiymətləndirilməsi, kapitalın yerləşdirilməsinin təhlili, kapitalın formalaşması mənbələrinin təhlili, səmərəliliyin və kapitaldan istifadə intensivliyinin qiymətləndirilməsi, kapitalın rentabelliyinin təhlili, maliyyə dayanıqlığının və ödəniş qabiliyyətinin qiymətləndirilməsi, likvidliyin və ödəniş qabiliyyətinin təhlili, kredit qaytarma qabiliyyətinin və iflas riskinin qiymətləndirilməsi və s.

Kənd təsərrüfatı istehsalçısının maliyyəyə çıxışı vəziyyətini təhlil etmək üçün, habelə onun maliyyə vəziyyətini, o cümlədən ödəmə qabiliyyətini qiymətləndirmək üçün üfüqi, şaquli, trend, maliyyə əmsalları, müqayisəli təhlil və amil təhlili üsullarından istifadə etmək olar. Kənd təsərrüfatı istehsalına vəsait qoyuluşunun. məqsədəuyğunluğunun müəyyən edilməsi üçün maliyyə dayanıqlığı, işgüzar fəallıq, artım sürəti, səmərəlilik və ödəniş qabiliyyəti əmsallar qruplarına üstünlük verilmişdir. Kənd təsərrüfatı istehsalçılarının

maliyyəyə çıxışı vəziyyətinin təhlili məqsədi ilə iqtisadi-riyazi modellərin tətbiqi zamanı vaxtsız və natamam maliyyələşdirmə səbəbindən itkilərin minimumlaşdırılması meyarından istifadə məqsədəuyğun hesab edilmişdir.

Kənd təsərrüfatı istehsalçısının maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsində transaksiya xərclərinin həcmi, strukturu və dinamikasının təhlili mühüm əhəmiyyət kəsb edir. Transaksiya xərclərinin yuxarı həddi aqrar iqtisadi fəaliyyətin məqsədəuyğunluğunu şərtləndirdiyinə görə, həmin xərclərin azalması istehsal subyektinin maliyyəyə çıxışının asanlaşması əlaməti kimi qəbul edilə bilər.

Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması təcrübəsi öyrənilərkən mühityaradan üç əsas amilin əsas xarakteristikaları araşdırılmalıdır: səmərəli kreditləşdirmə, sığorta və sahənin investisiya cəlbediciliyinin artırılması təcrübəsi. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması, onların kreditlə təminatının yaxşılaşdırılması üçün, istehsalçılar faiz dərəcələrinin müəyyən edilməsi zamanı banklarla birgə qərar qəbul etmək imkanına malik olmalı, kooöperativ bankların təcrübəsindən fəal surətdə istifadə edilməli, qrantlardan istifadə barədə sistem kifayət qədər şəffaf olmalıdır.

Aqrar sığorta sistemində dövlətin və özəl bölmənin tərəfdaşlığı həm kənd təsərrüfatı istehsalçılarının, həm də özəl sığorta şirkətlərinin marağını təmin etməli, tariflərə çevik münasibət olmalıdır. Aqrar sığortada dövlətin fəal iştirakı nəzərdə tutulmayan, habelə özəl sığorta şirkətləri arasında rəqabətin olmadığı təcrübə hazırda az perspektivlidir. Milli aqrar sığorta sistemində dövlət-özəl bölmə tərəfdaşlığının imkanlarının reallaşdırılması baxımından Türkiyə təcrübəsi perspektivli hesab edilə bilər.

Aqrar sahənin, habelə aqrar-ərzaq sektorunun investisiya cəlbediciliyi institusional strukturun təkmilləşdirilməsi, rəqəmsal platformalardan fəal istifadə sayəsində yüksəldilə bilər. Xarici təcrübədə aqrar sahədə fəaliyyətin məkan və zaman daxilində fəaliyyətin nəzərə alınmasını, istehsal resurslarının əsas parametrlər üzrə yaxşılaşdırılmasını, müştərək loqistika fəaliyyətini və s. nəzərdə tutan, klaster təşəbbüslərinə investisiyaların istehsalçıların maliyyəyə çıxışı mühitini yaxşılaşdırdığı barədə çoxsaylı dəlillər mövcuddur.

Ölkədə mülkiyyət plüralizmi üçün yaradılmış hüquqi baza və iqtisadi təməl sahibkarlığın, o cümlədən aqrar sahədə təsərrüfatçılığın müxtəlif formalarının inkişafına səbəb olsa da, fərdi sahibkarlığın inkişaf potensialı arzu edilən səviyyədə reallaşmamışdır. Dövlətin davamlı olaraq zəruri tədbirlər həyata keçirməsinə baxmayaraq müşahidə edilən belə vəziyyəti şərtləndirən amillər qismində, ilk növbədə aqrar sahədə sahibkarlığa başlayanların aqrobiznes təcrübəsinin, zəruri aqrar təhsilinin, məqbul ilkin kapitalının olmamasını qeyd etmək olar. Hazırda kənd təsərrüfatı istehsalçılarının maliyyə vəziyyətinin onların emal müəssisələri, loqistik sistem elementləri, istehlakçılarla (alıcılarla) iqtisadi və hüquqi münasibətlərindən və dövlət dəstəyindən, o cümlədən istehsalçılara girovsuz mikrokreditlərin verilməsi üzrə yeni mexanizmin formalaşması tədbirlərinin gedişindən asılılığı hələ böyükdür.

Kreditlərin əlyetənliyinə təsir edən amillərini aşağıdakı kimi təsnifləşdirmək olar: müəssisənin rəqabət qabiliyyəti; fəaliyyətin risklilik dərəcəsi; sahədə fəaliyyətin iqtisadi nəticələrinin qeyri-müəyyinliyi dərəcəsi; inflyasiya riskləri; bankların əməliyyat xərclərinin səviyyəsi; sahənin ixrac potensialı; kapitalın dövriyyə sürəti; sahəyə dövlət dəstəyi; kredit aılmaq istəyən subyektin borc yükünün xarakteristikaları və s.

Kənd təsərrüfatı istehsalçılarının, hətta nəzərdə tutulan güzəştli şərtlərlə belə öz əmlaklarını sığortalamaqda maraqlı olmaması aşağıdakı səbəblərlə əlaqədardır: sığortaçı və sığortalının aqrar sığortaya etimadının az olması; sığorta barədə məlumatın azlığı; sığorta bazarında zərərlərin qiymətləndirilməsi və standartların tətbiqində birmənalı olmayan yanaşmaların mövcudluğu; irimiqyaslı zərərlərin ödənilməsi alətlərinin risklərin yenidən bölgüsü sisteminin formalaşmaması səbəbindən işləməməsi və s.

Aqrar sığortanın istehsalın maliyyə dayanıqlığında oynadığı rol sığorta savadının artırılmasından asılıdır. Aqrar sığorta savadlılığının artırılması tədbirlərinin təhlili aşağıdakı dəyişikliklərin məqsədəuyğun olduğunu söyləməyə əsas verir: müxtəlif kənd rayonlarında pilot təsərrüfatlarının sığortası və onların nəticələrinin geniş tanıdılması; aqrar sahədə sığorta savadlılığının artırılması tədbirlərinin təcrübi nəticələrinin izlənməsi və maarifləndirmə prosesində müvafiq

təshihlərin edilməsi; bu işdə sığorta şirkətlərinin fəal iştirakının təmin edilməsi.

Ölkədə kənd təsərrüfatına investisiya qoyuluşlarının təşviqi mütərəqqi struktur dəyişikliklərinin dəstəklənməsinə xidmət edir. Təhlillər gösətir ki, ölkədə kənd təsərrüfatının investisiya cəlbediciliyini yüksəltmək üçün sahədə istehsalın texnoloji səviyyəsi yüksəldilməli, dövlət himayəsi tədbirləri rəqabət mühitini pisləşdirməməli, rəqəmsal texnologiyaların tətbiqi üçün əlverişli mühit formalaşdırılmalıdır. Ermənistanın işğalından azad edilmiş ərazilərin investisiya cəlbediciliyinin yüksəldilməsi üçün aqrar istehsalın, aqrar turizmin və özünüməşğulluğun birgə inkişaf etdirilməsi, sahəyə investisiya qoyuluşlarının təşviqi sistemində dövlət-özəl bölmə əməkdaşlığından yararlanma məqsədəuyğundur.

Kənd təsərrüfatında istehsal subyektlərinin kreditqaytarma qabiliyyətinin yüksəldilməsi məqsəsilə aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun hesab edilə bilər: sahədə kreditləşdirmənin monitorinqinin təkmilləşdirilməsi, həmin monitorinqlərlə əlaqədar transaksiya xərclərinin minimuma endirilməsi; işçilərin əmək haqqının istehsal subyektinin istehsal – maliyyə fəaliyyətinin nəticələri ilə əlaqələrinin gücləndirilməsi; marketinq fəaliyyətinin yaxşılaşdırılması; əməyin və məhsulun keyfiyyətinin yüksəldilməsi; öz vəsaitləri hesabına alınmış dövriyyə fondlarının artırılması; debitor və kreditor borclarının səmərəli idarə olunması; alıcılarla vəsaitlərin vaxtında və tam həcmdə daxil olmasını təmin edən müqavilə münasibətlərinin qurulması; malgöndərənlərlə alıcılardan vəsait daxilolmalarının vaxtını nəzərə alan müqavilə münasibətlərinin qurulması; borcalan kimi nüfuzun və iqtisadi dayanıqlığın təmin olunması.

Kənd təsərrüfatı istehsalçılarının kreditlə təminat səviyyəsinin yüksəldilməsi üçün aşağıdakı istiqamətdə tədbirlərin həyata keçirilməsi təklif olunur: bankların aqrar sahəyə marağının artırılması üçün kredit bazarının tənzimlənməsində dövlətin rolunun artırılması, kənd təsərrüfatı kooperasiyasının təşviqi; güzəştli kreditləşdirmə sisteminin, xüsusilə ərzaq və qida təhlükəsizliyinin etibarlı təminatı, habelə dayanıqlı innovasiyalı inkişaf meyarları bazasında təkmilləşdirilməsi; məqsədli kreditləşdirmə fondlarının yaradılması və

dəstəklənməsi; kredit birliklərinin yaradılması və onların koordinasiya olunan fəaliyyətinin təşviqi; kənd təsərrüfatı istehsalı subyektlərinin maliyyə sağlamlaşdırılması üzrə proqramların hazırlanması və həyata keçirilməsi; dövlət-özəl bölmə tərəfdaşlığı şəraitində kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxışı imkanlarının genişləndirilməsi; aqrar innovasiyaların təşviqi üçün xüsusi innovasiya fondlarının yaradılması; aqrar lizinq bazarında rəqabətin təşviqi; kənd təsərrüfatı müəssisələri ilə davamlı və müsbət iş təcrübəsinə malik banklara dövlət tərəfindən resurs dəstəyinin verilməsi; ölkədə zəruri institusional və infrastruktur təminatının (o, cümlədən, İpoteka və Kredit Zəmanət Fondunun, müvafiq sığorta fondunun) yaradıldığını nəzərə alaraq torpaq-ipoteka kreditləşdirilməsinin tətbiqi; kənd təsərrüfatı kredit kooperasiyasının inkişaf etdirilməsi.

Aqrar sığortanın təkmilləşdirilməsi istiqaməti kimi müştərilərlə əlaqələrin idarəetmə (qərb ədəbiyyatında CRM adlanan) sistemlərinin qurulması və istifadəsi perspektivli ola bilər. Sistemin aparat və proqram təminatının zəruri səviyyəsi, müştərilərin vahid verilənlər bazasının dolğunluğu və çevikliyi əldə edildikdə müştərilərin sayının artırılması və sığorta fəaliyyətinin genişləndirilməsi perspektivləri genişdir. Bu halda konkret sığorta şirkətindən imtinaların səbəblərini (xidmət mədəniyyəti, tarif, yerləşmə məkanı və bir sıra digər) təhlil etməklə onları azaltmaq, real müştərilərin sayını artırmaq mümkündür.

Rəqəmsal texnologiyaların tətbiqi sığorta işinin səmərəliliyini yüksətmək baxımından real imkanlara malikdir. Bu ilk növbədə, rəqəmsal sənəd dövriyyəsinin qurulmasından irəli gələn səmərədir. Sığortanın rəqəmsallaşması, ilkin təcrübədən göründüyü kimi sığorta şirkətinın rəqabət qabiliyyətini artır. Bununla belə, rəqəmsal mühitdə sığorta şirkətinin müştərilərinin fərdi məlumatları üçün kibertəhdidlər artır, bəzi sosial həssas insanların sığorta şirkətlərinə müraciətinə psixoloji və infrastruktur maneələri yaranır.

Yaxın perspektivdə aqrar sığorta bazarının dövlət tənzimlənməsi sığortaçıların mənafeyinin və sığorta şirkətlərinin maliyyə dayanıqlığının zəmanətçisi rolunda çıxış etməlidir. Sığorta fəaliyyətində vasitəçilərin əvəzlənməsinə yönəlmiş rəqəmsal texnologiyaların tətbiqi zamanı, həmin əvəzlənmənin sürəti, sığorta xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması və sığortalıların həmin

xidmətlərə əlçatanlığının asanlaşdırılması meyarları arasında əsaslandırılmış kompromis variant tapılmalıdır.

Kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir: investisiyaları daha səmərəli istifadə edən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi məsələsinə diqqətin artırılması; innovasiyalara açıq və yüksək texnoloji fəaliyyətə hazır aqrar sahibkarlar sinfinin formalaşdırılması; bazarın dəyişən tələblərinə adekvat reaksiya verə bilən, innovasiyalara, o cümlədən rəqəmsal innovasiyalara açıq və rəqabət qabiliyyətli fəaliyyət üçün investisiya tələbatı yarada bilən kadr hazırlığı; aqrar xidmətlər, istehsal və sosial infrastrukturun inkişafı sayəsində kənd ərazilərinə investorların marağının artırılması; kənd ərazilərində xidmətlər bazarının inkişafının stimullaşdırılması.

**Dissertasiya işinin əsas müddəaları,əldə edilmiş nəticə və təkliflər aşağıdakı dərc edilmiş elmi əsərlərdə öz əksini tapmışdır:**


1. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış vəziyyətinin qiymətləndirilməsinin metodiki məsələləri. // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2020, 3 (58). – s. 112-119.
2. Kənd təsərrüfatı istehsalçılarının kreditə çıxışının asanlaşdırılmasının xarici təcrübəsi // – Bakı: “Əmək və Sosial Münasibətlər” elmi-praktiki jurnal, 2021, 2 (16). – s. 103-110.
3. Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi // – Bakı: “Kənd Təsərrüfatının İqtisadiyyatı” elmi-praktik jurnal, 2021. 4 (38). – s. 94-102.
4. Kənd təsərrüfatı istehsalçılarının səmərəli kreditləşdirilməsi üzrə Qərbi və Şimali Avropa təcrübəsi // – Bakı: Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Pandemiyanın dünya ölkələrinin sosial – iqtisadi inkişafına təsiri problemləri” beynəlxalq elmi-praktik konfrans, 31 may 2021. – s. 102-104.
5. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasında investisiya amilləri: xarici təcrübə // – Gəncə: “Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı” respublika elmi-

praktik konfrans, 05 may 2022. – s. 124-127.

6. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasında sığorta amilləri: xarici təcrübə // – Bakı: Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Modernləşmənin prioritet istiqamətləri: sosiomədəni və iqtisadi-ekoloji aspektlər” beynəlxalq elmi-praktik konfrans, 06 may 2022. – s. 127-130.

7. Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin yüksəldilməsi // – Bakı: “Sosial-iqtisadi və tarixi mədəni əlaqələrin strateji prioritetləri” beynəlxalq sosial elmlər konfransı, 28-29 sentyabr 2022. – s. 120-125.

8. Облегчение доступа к финансированию инновационного сельского хозяйства // – Москва: Вестник Алтайской Академии Экономики и Права Научный журнал, 2022. 9 (1). – с. 106-112.

9. Aqrar sığorta sisteminin təkmilləşdirilməsi istiqamətləri // – Bakı: “Audit” elmi-praktiki jurnal, 2023, 2 (40). – s. 92-102.

10. Kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi // – Bakı: “Heydər Əliyev və müasir türk dünyası” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 2 may 2023. – s. 474-479.

11. Heydər Əliyev və aqrar sahənin inkişaf istiqamətləri // – Mingəçevir: “Heydər Əliyev – 100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi” respublika elmi konfransı, 4-5 may 2023. – s. 367-373.

12. Концептуальные вопросы облегчения доступа сельскохозяйственных производителей к финансам // – China: IV İnternational Scientific Conference Beijing. 24-25 oktyabr 2023. – s. 4-9.

Dissertasiyanın müdafiəsi 27 fevral 2025-ci il saat $14^{00}$-da Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurasının iclasında keçiriləçək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 25 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.01.2025

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 44274 işarə

Tiraj: 100